Azərbaycan Arxeologiyası
Xəzər Universiteti Nəşriyyatı 2019

Cild 22 № 2 2019. 40-55
DOI: 10.5782\ 2218-0346.2019.22.2.40

# Azərbaycanın cənub-şərq bölgəsinin Son Tunc-İlk Dəmir dövrü kurqanları və daş qutu qəbirləri (Lerik və Yardımlı rayonlarının materialları əsasında)

**Anar Ağalarzadə**
AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu
anararxeoloq@mail.ru

**Açar Sözlər:** Talış-Muğan mədəniyyəti, kurqan, daş qutu qəbir, Son Tunc-İlk dəmir dövrü.

1986-cı ildə yaradılmış “Talış-Muğan” arxeoloji ekspedisiyasının aşkar etdiyi abidələr içərisində Tunc və Dəmir dövrlərinə aid qəbir abidələri çoxluq təşkil edir [1, s. 49]. Cənubi Qafqazda Son Tunc-İlk Dəmir dövründə sosial-iqtisadi vəziyyəti əks etdirən əsas arxeoloji mədəniyyətlərdən biri Talış-Muğan mədəniyyətidir. Bu mədəniyyət Muğan düzü, Lənkəran düzənliyi və Talış dağlarını əhatə edir. Məlumdur ki, əgər e.ə. III minillikdə təsərrüfatda əkinçilik üstünlüyə malik idisə, e.ə. II minillikdə yarımköçəri və köçəri maldarlıq təsərrüfatı başlıca sahəyə çevrilmişdi [2, s. 36]. Bu dövrdə Azərbaycanın Cənub-şərq bölgəsində təsərrüfat həyatını daha dərindən tədqiq etmək üçün “Talış-Muğan” arxeoloji ekspedisiyası Lerik və Yardımlı rayonları ərazisindəki Son Tunc-İlk Dəmir dövrü qəbir abidələrinin öyrənilməsini qarşıya məqsəd qoyulmuşdur.

Bu abidələrin tədqiqinmə XIX əsrdə başlanmışdı. XIX əsrin sonlarında Cənubi Qafqaza fransız arxeoloqu Jak de Morqanın rəhbərliyi altında arxeoloji missiya göndərilmişdi. O, buna qədər İran, Misir və Hindistandakı qazıntıları ilə məşhur idi [3, s. 34]. 2012-ci ildə təşkil olunan Azərbaycan-Fransa beynəlxalq arxeoloji ekspedisiyası da Morqanın tərtib etdiyi qəbirlərin xəritəsinə əsasən Lerik rayonunun Kraveladi kəndi ərazisində həm arxeoloji kəşfiyyat, həm də əsaslı arxeoloji qazıntılar aparmışdır [4, s. 26]. Kraveladi kəndi Lənkəran-Lerik şosse yolunun 20-ci kilometrliyində, Lerik rayonunun Piran kəndindən 3 kilometr cənub-qərbdə yerləşir. Kəndin cənub tərəfində, Ləkərçayın sol sahilində, meşənin içərisində xeyli qəbirə rast gəlinir. Burada şimal-cənub istiqamətində uzanan II Kraveladi nekropolu yanları iri çaydaşlarından düzəldilmiş qəbirlərdən ibarətdir. Dəniz səviyyəsindən təxminən 286 m yüksəklikdə, meşə örtüyünün altındakı meqalitik tipli bu qəbirlərin üzərində bitmiş ağacların kökləri dəfn kameralarını ciddi dağıntıya məruz qoymuşdur [4, s. 356]. Nekropolda xeyli daş qutu qəbirlər qeydə alınmış və yeddi qəbirdə arxeoloji qazıntılar aparılmışdı.

Ekspedisiya, Morqanın vaxtilə tərtib etdiyi xəritəyə əsasən, Ləkərçayın qərb sahilindəki II Kraveladi nekropolunda onun qazmadığı qəbirləri tədqiq

etmiş və bu qəbirlərin Morqana qədər qarət olunduğu qənaətinə gəlmişdi [4, s. 356]. Amma, bu qəbirlərdə kameranın üst örtüyündə nəhəng və ağır çəkili daşların olması müəyyən şübhələr yaradır. Əksər qəbirlərin dağıdılması fikrinin bəzən məntiqi izahı yoxdur.

Məlumdur ki, Talış-Muğan mədəniyyətinə məxsus daş qutu qəbirlərin əksəriyyətində skeletə rast gəlinmir. Jak de Morqan Kraveladi nekropolunda qazdığı qəbirlərin heç birində skeletə rast gəlinmədiyini yazır və onları qarət edilmiş qəbirlər adlandırır [5, s. 22]. İran ərazisindəki Talış vilayətində qazıntılar aparan M.R.Xələtbəri də bu dövr daş qutu qəbirlərin əksəriyyətinin tamamilə boş olduğunu yazır və bunları qarət edilmiş qəbirlər adlandırır [6, s. 14].

Skeletsiz qəbirlərin meydana çıxma səbəbləri barədə elmi ədəbiyyatda müxtəlif fikirlər irəli sürülmüşdür. Onların uzaqda həlak olmuş tayfa üzvlərinə və ya naməlum şəraitdə ölmüş, meyiti tapılmamış şəxslərə aid olması və s. kimi mülahizələr vardır. N.Müseyiblinin fikrincə, meyitlərin qəbirlərə qoyulmaması məqsədyönlü şəkildə icra edilmiş dəfn adəti olmuşdur [7, s. 60] və belə dəfn abidələri dəfn adətinin məzmunu baxımından xatirat qəbirlərdir [8, s. 44]. Tədqiqatçının fikrincə, "....belə qəbirlərdə insan skeletinin tapılmamasının və onlarda insanların, ümumiyyətlə, dəfn edilməməsinin səbəbini bölgənin Son Tunc dövrü insanlarının təsərrüfat həyatının xüsusiyyətlərində axtarmaq daha doğrudur. Həmin dövrdə bütün Cənubi Qafqazda yaylaq maldarlığı ən yüksək inkişaf səviyyəsinə çatmış və iqtisadi həyatda aparıcı mövqe tutmuşdur. Qədim maldarlar ilin 3-4 ayını yaylaqlarda keçirir, bu dövrdə vəfat edən insanlar elə oradaca dəfn olunurdular (həmin dağlıq ərazilərdə yüzlərlə qəbir abidəsi mövcuddur). Arana - əsas yaşayış məskənlərinə qayıtdıqda isə yaxınlıqdakı məzarlıqda yaylaqda dəfn edilən insanların şərəfinə rəmzi, xatirat qəbirlər salırdılar. Qeyd edildiyi kimi, qədim maldarların həyatının müəyyən hissəsi yaylaqlarla bağlı olmuşdur. Yaylaq ərazilərdə aşkar edilmiş skeletsiz qəbirlər də, böyük ehtimalla, aranda vəfat etmiş insanların xatirəsinə salınmışdır. Aranda və dağdakı qəbirlərin müxtəlifliyi isə coğrafi şəraitlə və təbii ehtiyatlarla bağlı olmuşdur. Onların hər ikisinin vahid mədəniyyətə aid olmasını həmin qəbirlərdən tapılmış avadanlığın eyniliyi sübut edir" [8, s. 44-45]. N.Müseyiblinin özünün qazıntısını apardığı Zəyəmçay nekropolundakı 119 və 120 №-li kurqanaltı qəbirlərdə dağlıq ərazinin qəbir tipinin (daş qutu) struktur elementinin təkrarlanması qışlaq ilə yaylaq arasındakı mədəniyyətin eyniliyini sübut edən faktlardandır [8, s. 45]. Bu baxımdan tədqiqatçının fikirlərini uğurlu hesab etmək olar.

Morqan özünün "İrana elmi səfər" adlı əsərində [5] Kraveladi nekropolunda 116 qəbir abidəsi qeydə aldığını, lakin onların hamısında qazıntıların aparılmasının mümkün olmadığını, 10 qəbirdə (4, 5, 7, 11, 40, 106, 107, 108, 109, 110 №-li qəbirlər) apardığı qazıntılar nəticəsində çox da zəngin olmayan

maddi mədəniyyət nümunələrinin aşkarlandığını yazır [5, s. 21-26]. O, tədqiq etdiyi 40 №-li sərdabə tipli daş qutu qəbirdən açıq boz rəngli əqiqdən bir ədəd möhür tapmışdı. Möhürün üzərində zoomorf təsvir - "Bos Zebu" adlanan hind donqar öküzünün şəkli qazılmışdır [5, s. 24]. Morqanın fikrincə, Hindistan ərazisinə məxsus olan bu heyvan sərdabə qəbirlərin tiki-lişi dövründə Azərbaycanın cənubunda məlum olmuşdur. Ehtimal edilir ki, müəyyən əlaqələr nəticəsində hind öküzü Talış ərazisinə gətirilmişdir. Onun fikrincə, bu daşın üzərindəki təsvir Hindistan xalqları ilə Xəzər dənizi sahilində yaşayan xalqlar arasında qədim zamanlardan etno-mədəni əlaqələrin olduğunu göstərmək baxımından maraqlıdır [5, s. 95]. Morqan bu təsvirə İran ərazisindəki Mazandaran, Gilan və Talışda təsadüf olunduğunu qeyd etmiş və öküzün tunc dövrü tayfalarının maldarlıq təsərrüfatında əhəmiyyətli yer tutduğunu söyləmişdir [5, s. 96].

Məlumdur ki, Morqan Lerik rayonu ərazisindəki qazıntılardan əldə etdiyi arxeoloji materialları Fransanın Sen Jermen Milli Arxeologiya Muzeyinə aparmışdır. Bu muzeydə Azərbaycanın maddi mədəniyyət nümunələri təxminən 100 qutuda saxlanılır ki, bunlar da saxsı və metal qablar, tunc və dəmirdən bəzək əşyaları və silahlar, müxtəlif təyinatlı və tərkibə malik muncuq və asma bəzəklərdən ibarət kolleksiyalardır. Metal nümunələrin əksəriyyəti XX əsrin 80-ci illərində Fransanın ən aparıcı laboratoriyalarında bərpa edilmişdir [9, s. 69].

2014-cü il çöl tədqiqatları mövsümündə Yardımlı rayonu ərazisindəki Sarıbulaq yaylaqlarındakı daş qutu qəbirləri nekropolunda kəşfiyyat xarakterli arxeoloji qazıntılar aparılmışdı. Sarıbulaq nekropolu Alar kəndindən 7 km şimal-qərbdə, geniş düzənlikdə, dəmyə əkin sahələrinin yaxınlığında yerləşir. Alar kəndinə gedən torpaq yol nekropolu 2 hissəyə bölmüşdür. Burada irili-xırdalı sal daşların mövcudluğu sahənin əkin yerlərinə çevrilməsinə imkan verməmişdir. Kəşfiyyat qazıntıları zamanı 3 qəbir tədqiq olunmuşdur:

**1 №-li qəbir.** Qəbirin kamerası (3, 30x1,20 m) şərq-qərb istiqamətindədir. Divarları və üst örtüyü enli sal daşlardan ibarətdir. Kameranın dərinliyi 70 sm-dir. Skelet aşkar olunmadı. Bir neçə gil qab fraqmenti əldə olundu. Bunlar qırmızı rəngli, narın qum qatışıqlı gildən yaxşı bişirilmiş saxsı qablara aiddir. Dəfn abidəsi dəniz səviyyəsindən 1942 m hündürlükdə tapılıb *(I tablo, şək. 1).*

**2 №-li qəbir.** Qəbirin kamerası sərdabə tiplidir, şimal-qərb-cənub-şərq istiqamətindədir. Kamreanın uzunluğu 8,50 m, eni 3,50 m-dir. Qəbirin yan tərəflərində iri və yastı sal qaya daşlarından ibarət qutu formalı düzüm vardır. Üst hissəsinin 3 ədəd örtük daşı yanlara səpələnmişdir və ehtimal ki, bu qəbir də qarət olunmuşdur. Qəbir dəniz səviyyəsindən 1957 m yüksəklikdə aşkar edilib.

**3 №-li qəbir -** kəndə gedən yolun sol tərəfində, dağın ətəyində yerləşir *(I tablo, şək. 2).* Nekropola yaxın müsəlman qəbiristanlığı vardır. Sərdabə tiplidir, şimal-qərb-cənub-şərq istiqamətindədir. Uzunluğu 5.50 m, eni 0,8 m, kamerasının dərinliyi 1,2 m-dir. Qəbir kamerasının döşəməsinə nazik lövhəli qaya daşları döşənmişdir. Divarlarına düzülmüş sal daşlar içəri tərəfdən yonularaq nisbətən hamarlanmışdır. Sərdabənin üstü 4 ədəd iri sal qaya daşları ilə örtülmüşdür. Böyük ehtimalla dəfn bir qədər yonulmaqla müəyyən formaya salınmış təbii qaya daşlarının içərisində icra edilmişdir. Qəbir kamerasının daxilindən 1 m dərinlikdən insana məxsus yalnız bud sümükləri tapılmışdır. Eyni zamanda, saxsı qab fraqmentləri, tuncdan bəzək əşyaları, daş və muncuqlar əldə edilmişdir *(II tablo).* Qəbir dəniz səviyyəsindən 1967 m yüksəklikdə yerləşir.

Alar kəndinin cənub-şərq tərəfində, 1 hektara yaxın sahədə xeyli sayda daş qutu qəbirlərin salındığı "Gavurqəbirləri" nekropolu yerləşir. Yerli sakinlərin dediyinə görə, XX əsrin 90-cı illərində bu qəbirlər "dəfinə axtaranlar" tərəfindən tamamilə dağıdılmışdır. Bəzi qəbirlərin yanlarında örtük daşları səpələnmiş vəziyyətdədir. Nekropol dəniz səviyyəsindən 1524 m hündürlükdə yerləşir.

Kənddən 2 km cənubda "Alar mağarası" adlı abidə vardır. XX əsrin 70-ci illərində M.Hüseynov bu abidəyə baxış keçirmiş və ondan daş dövrü insanlarının sığınacaq kimi istifadə edə biləcəyi ehtimalını söyləmişdi. Sığınacağın girişinin uzunluğu 17 m, içərisinin uzunluğu 22 m, hündürlüyü 10 m, diametri 20 m-dir. Ümumi sahəsi 62,8 kv.m-dir. Girişi şimal-qərb tərəfdədir. Dəniz səviyyəsindən 1865 m yüksəklikdə yerləşir. Mağaranın üstündə geniş düzən sahə vardır. Bu sahədən son vaxtlara qədər əkin yeri kimi istifadə edilmişdir. Burada bir neçə yerdə sıx şəkildə daş tökümü olan, üstü örtülü, yanları təbii düzümlü daşlardan ibarət qəbirlər salınmışdır. Seyrək halda salınmış qəbirlərin ölçüsü 2,7x1,5 m-dir. Həm Gavurqəbirləri, həm də Alar mağarasının yaxınlığındakı daş qutu qəbirləri nekropolundan dağıntılar zamanı tapılan arxeoloji materiallar kənd sakinləri tərəfindən toplanılmışdır *(bu materialların bir qismi Alar kənd orta məktəbinin tarix müəllimi Y. B. Əliyevin evində saxlanılır - A.A.).* Tədqiqatlar zamanı bu artefaktlara da baxış keçirilmiş və lazımi məlumatlar toplanmışdır.

Ümumiyyətlə, daş qutularda dəfn İlk Dəmir dövründə bütün Qafqazda əsas dəfn adətlərindən birinə çevrilmişdi. Daş qutu qəbirlər xüsusən Talış-Muğanda, Azərbaycanın Son Tunc-İlk Dəmir dövrünün Xocalı-Gədəbəy arxeoloji mədəniyyətində, elə həmin dövrün Dağıstandakı Qayakənd-Xoroçoyevsk mədəniyyətində, Şimali Qafqazın Koban mədəniyyətində əsas qəbir tipi hesab edilir. Son Tunc-İlk Dəmir dövrünün daş qutu qəbirlərində dəfnlər Gürcüstan və müasir Ermənistan ərazilərindən də yaxşı məlumdur [10, s. 131].

Bölgədə antik dövrə aid daş qutu qəbirlər aşkar olunur. Q.Qoşqarlının fikrincə, "... antik dövrün daş qutularda dəfn ayini qədim dəfn ənənəsinin davamıdır və buna görə də antik daş qutular öz quruluş xüsusiyyətinə görə əvvəlki dövrün daş qutularına olduqca yaxındır. Çox vaxt antik dövrdə bu tip qəbirlərin lokal xüsusiyyətləri də saxlanılır. Belə ki, Talış-Muğan zonasında Son Tunc-İlk Dəmir dövründə iki bölmədən ibarət daş qutulara təsadüf olunur. Birində ölən adam, digər bölmədə isə dəfn avadanlığı yerləşdirilir. Həmin zonanın antik dövr daş qutularında bu ənənə saxlanılır ki, bunu da Xanbulaq və Peştəsər qəbiristanlarının nümunəsində görmək olar" [10, s. 132]. Aparılmış təhlillərdən belə bir nəticəyə gəlinmişdir ki, antik dövrdə Azərbaycan və bütün Cənubi Qafqaz ərazisində xronoloji cəhətdən sabit və yayılmış qəbir tiplərindən biri də daş qutu qəbirlərdir. Daş qutu qəbirlər bu regionda tunc dövründə təşəkkül tapmış dəfn ənənəsini davam etdirir ki, bu da yerli ənənənin dayanıqlığından və Azərbaycanın avtoxton əhalisinin bir çox nəsilləri tərəfindən yaradılan maddi mədəniyyətin irsiliyindən xəbər verir [10, s. 132].

1926-cı ildə Qızılburunda qazıntı işləri aparan İ.Meşşaninovun ekspedisiyası 6 daş qutu və 1 sərdabə tipli qəbir qazmışdır [11, s. 17-23]. Bəzi materialların analoji müqayisəsi, dəfndə icra olunan daş qutuların düzülüşü və üstünün örtülməsində istifadə olunan sal daşların qoyuluşu Yardımlının Sarıbulaq qəbirləri ilə oxşar xüsusiyyətlərə malikdir. Tədqiqatçılar Qızılburundan tapılmış qəbirləri e.ə. IX-VIII əsrlərə aid edirlər [11, s. 23].

1968-ci ildə də Lənkəran yaxınlığında, Divəlona adlanan yerdə, Talış dağlarının ətəklərində daş qutu tipli qəbirlər tapılmışdı. Yer səthində olan sal daşlar qəbirlərin bəzən bir, bəzən də iki divarı haqqında təsəvvür yaradır və Divəlonada Talış dağlarında iri ölçülü sərdabə tipli qəbirlərin də olduğunu sübut edir [12, s. 48]. Bu tapıntıların təsviri və müqayisəli təhlilinə əsasən tədqiqatçılar abidəni İlk Dəmir dövrünə, təxminən e.ə. IX-VII əsrlərə aid edirlər [12, s. 56].

İ.Cəfərzadə Cəlilabad rayonu ərazisindəki Uzuntəpə abidəsindən əldə edilən materiallarda Xocalı-Gədəbəy, Qızılburun və Yaloylutəpə mədəniyyətlərinin təsirinin açıq-aydın olduğunu göstərir və bu arxeoloji materialların Muğan mədəniyyətinə aid olmasını söyləməklə bərabər, onun izlərinə Cənubi Qafqazın bir çox yerlərində və İranın qərb rayonlarında rast gəlindiyini qeyd edir [13, s. 51]. F.Mahmudovun fikrincə, bu cəhət dağlıq və düzən zonada yaşamış tayfaların mədəniyyətləri arasında qarşılıqlı əlaqədən daha çox, həmin ərazilərdə Tunc dövrünün sonu və Dəmir dövrünün əvvəllərində eyni mədəniyyətin - Talış-Muğan mədəniyyətinin yayıldığını göstərir. Bu mədəniyyət üçün dağlıq hissədə iri dolmenvari sərdabələr, daş qutu qəbirlər və kurqanlar, düzəndə isə kurqanlar və torpaq qəbirlərdən ibarət qəbiristanlıqlar səciyyəvidir. Talış-Muğan mədəniyyəti abidələrinin belə iki lokal

qrup halında olması, böyük ehtimalla, təbii-coğrafi şərait və başqa səbəblərdən asılı doğmuşdur [14, s. 74-75]. F.Mahmudovun fikrincə, əldə olunan materiallar əsasında Talış-Muğan mədəniyyəti daşıyıcılarının təkcə qonşu deyil, həm də daha uzaq əyalətlərlə mədəni-iqtisadi əlaqələri aydın izlənilir. Buna görə də, cənub regionunu coğrafi mövqeyinə görə Ön Asiya və Qafqazın mədəni ötürücüsü hesab etmək olar [15, s. 148-149; 16, s. 17].

Son illər Azərbaycanın qərb bölgəsində aparılan qazıntılar zamanı daş qutu qəbirlər qeydə alınmışdır. Gədəbəy rayonunun İvanovka kəndi yaxınlığındakı Arabaçı kəndi ərazisində, eyniadlı çayın sağ sahilində aşkarlanmış Xocalı-Gədəbəy mədəniyyətinə aid nekropol təxminən 6-10 sot sahəni əhatə edir [17, s. 148]. T.Göyüşova bu bölgədə yerli əhalinin Son Tunc-Erkən Dəmir dövrünə aid daş qutu qəbirlərə oğuz qəbirləri dediklərini qeyd edir. Lakin tədqiqatçı bu qəbirlərdə arxeoloji qazıntı işləri aparmadan və qəbir materialları əldə etmədən onların dəqiq dövrü barədə məlumat verməyin çətin olduğunu söyləyir [17, s. 149].

Jak de Morqan Talış dağlarında apardığı qazıntılara əsasən, iri dolmenvari sərdabə tipli qəbirlərin Avropadan başlayaraq Rusiya və Qafqaza qədər gəlib çıxdığını, buradan Qafqaz, Koban və Şimali İran ərazilərində yayılmaqla Əfqanıstan ərazisindəki dağlıq vilayətlərdə mövcud olduğunu söyləyir [5, s. 20]. Bölgənin daş qutu qəbirlərinin yaxın analogiyasını İran ərazisində axtarmaq lazımdır. Çünki XIX əsrin sonlarında Morqan Azərbaycan ilə yanaşı, İran ərazisində də (1888-1901-ci illər) qazıntılar apararaq burada çoxlu sayda daş qutu qəbirləri qeydə almış və onları e.ə. II minilliyin ikinci yarısı-I minilliyin əvvəllərinə aid etmişdir [6, s. 11]. XX əsrin 90-cı illərində isə M.R.Xələtbərinin Xəzərin cənub-qərb tərəfində, Gilan vilayətindəki Talış rayonu ərazisində daş qutu qəbirləri nekropollarında apardığı arxeoloji qazıntılar [6] nəticəsində əldə olunan materiallar müqayisə üçün çox maraqlı faktlar verir. Şəfirud vadisindəki Miyanrud, Şakiri-Dəşt rayonu ərazisindəki Asbsara, Cənubi Kəngərud vadisi yaxınlığındakı Mariyan, Tündvin, Tüli-Gilan və Küramar kəndlərindəki daş qutulardan və dolmen qəbirlərdən tapılan artefaktlar yaxın analogiyalarını burada tapır [6, s. 11-18]. Tədqiqatçı Təndabin və Mariyan daş qutu nekropollarına əsasən qeyd edir ki, bu ərazilər əkinçilik, yaylaq maldarlığı və xarici hücumlardan qorunmaq üçün kifayət qədər əlverişli yerlər olmuşdur. Onun fikrincə, Dəmir dövrünün ilk mərhələsində Qafqazda yaşayan tayfaların məskunlaşdığı dəniz kənarı ərazilər subasmalara məruz olmuş və nəticədə onlar İran yaylaqlarına gələrək Gilan ərazisindəki yüksəkliklərdə məskən salmışlar [18, s. 23].

Xocalı-Gədəbəy mədəniyyəti tədqiqatçılarından M.Hüseynova bu mədəniyyətə məxsus daş qutu qəbirlərin və onlardan tapılan artefaktların geniş ərazidə yayıldığını qeyd etmiş, başqa müəlliflərə istinadən cəmiyyətin başlıca təsərrüfat sahəsi (maldarlıq, qoyunçuluq, atçılıq) və maddi mənəvi

mədəniyyətin (silahlar, at əsləhələri, bəzəklər, keramika, qəbir abidələri və s.) yayıldığı coğrafi regionların Mərkəzi Avropa, Cənubi Ukrayna, Şimali Qafqaz, Krım, Cənubi Qafqaz, Kiçik Asiyanın şimal-şərq hissəsi, Orta Asiya respublikaları, Qərbi Sibir və Altay, Monqolustan və Şimali Çin olduğunu bildirmişdir [19, s. 137].

K.Tabaldiyevin fikrincə, e.ə. I minilliyin əvvəllərində böyük köçəri maldar cəmiyyətləri formalaşmışdır. Arxeoloji materialların təhlili göstərir ki, məhz e.ə. I minilliyin birinci yarısında Avrasiya regionunda köçərilərin mədəniyyəti parçalanaraq maldarlığın meydana gəlməsinə səbəb olmuşdur. Bu dövr monumental qəbir strukturları, qəbilə ittifaqlarına məxsus sosial əhəmiyyətli dəfn abidələri ilə xarakterizə olunur [20, s. 49-51].

Bölgənin Son Tunc-İlk Dəmir dövrü kurqanları da kifayət qədər geniş ərazidə yayılmışdır. Alar kəndi yaxınlığındakı Sarıbulaq və Dərəkeçməz yaylaqlarında onlarla belə abidələr mövcuddur. Arxeoloji kəşfiyyat işləri zamanı təkcə Sarıbulaq yaylağında 30-dan çox kurqan qeydə alınmışdır. Müxtəlif ölçülü bu kurqanların yerləşmə xüsusiyyətləri də maraqlıdır. Belə ki, onlar şərq-qərb istiqamətində ardıcıllıqla düzülmüşlər və demək olar ki, böyük əksəriyyəti salamat qalmışdır. Kənd sakinlərinin dediyinə görə, bir neçə il bundan əvvəl kurqanlardan ikisi mərkəzi hissəsindən dağıdılmış və qəbirdən insan sümükləri, tunc xəncər, tuncdan bəzək əşyaları, muncuqlar və saxsı qablar tapılmış, beləliklə də, uğursuz "qızıl" axtarışı digər kurqanların salamat qalmasına səbəb olmuşdur [21]. Kəşfiyyat işləri zamanı bir neçə kurqan pasportlaşdırılmışdır. Kurqanlardan birinin diametri 13 m, hündürlüyü 1 m, kurqan təpəsi daşlı-torpaqlı olub daşla işlənmiş kromlexi vardır. Kromlexin mərkəzində qəbir kamerası aydın seçilir. Qəbir kamerası şərq-qərb istiqamətində olub, divarları qaya daşlarından ibarətdir. Kurqan dəniz səviyyəsindən 1964 m yüksəklikdə yerləşir *(III tablo, şək. 2).*

Digər kurqan da əvvəlki kurqanla eyni ölçüyə malik olsa da, kromlexi nisbətən fərqlidir. Belə ki, kurqanın ətrafına tökülmüş daşlar xırda ölçülüdür. Qəbir kamerasının üstünə xırda çay daşları seyrək şəkildə tökülmüşdür. Bu kurqan dəniz səviyyəsindən 1967 m hündürlükdədir *(III tablo, şək. 1).*

Yardımlı rayonunun Arvana kəndi yaxınlığındakı Komanı yaylağında da onlarla belə kurqan mövcuddur. Əfsuslar olsun ki, onların bir neçəsi XX əsrin 90- cı illərində İran ərazisindən gələn qızılaxtaranlar tərəfindən dağıdılaraq qarət edilmişdir. Dağıdılmış bir kurqanın mərkəzi qəbir kamerasında nəhəng çala əmələ gəlmiş, ətrafa insan sümüyü və saxsı qab fraqmentləri səpələnmişdir. Bu saxsı fraqmentləri qara və boz rəngli gildən yaxşı bişirilmiş, iri və narın qum qatışıqlı tərkibə malikdir. Bəzilərinin üstü hamar, bəziləri isə zəif cilalıdır. Oturacaq və gövdə fraqmentlərinə görə saxsıların Son Tunc-İlk Dəmir dövrünə aid olduğu ehtimal edilir. Qeyd etdiyimiz kimi, Komanı yaylaqlarında yerləşən kurqanlar müxtəlif ölçülüdür. Demək olar ki,

bu qəbir abidələri də bir cərgədə salınmaqla şimal-şərq-cənub-qərb istiqamətində düzülmüşdür. Kurqanlardan birinin diametri 20 m, hündürlüyü 1 m-dir. Sıx şəkildə daş düzümlü kromlexi vardır. Qəbir abidəsi dəniz səviyyəsindən 2077 m hündürlükdə yerləşir *(IV tablo).* Yaylaqda kiçik ölçülü kurqanlar da mövcuddur. Onlardan biri 5x5 m ölçülü olub hündürlüyü 40 sm-dir. Kurqanın üstü bütünlüklə xırda çay daşlarından ibarətdir. Abidə dəniz səviyyəsindən 2093 m hündürlükdə yerləşir. Bölgənin Son Tunc-İlk Dəmir dövrü kurqanları tam tədqiq olunmadığı üçün onların bəziləri haqqında səthi məlumatlar verilmiş və yaxud sadəcə qazıntısı aparılmış Astara rayonu ərazisindəki Erkən Tunc dövrü Telmankənd kurqanları ilə müqayisə olunmuşdur [22, s. 123].

S.Korenevski Tunc dövrünə aid daş quruluşlu və hündürlüyü 1 metrə qədər olan kurqanları kiçik ölçülü kurqanlar adlandırır [23, s. 8] və Mərkəzi Zaqafqaziya ərazisində bu tipli qəbir abidələrinin geniş yayıldığını qeyd edir [16, s. 34]. Bəzi tədqiqatçılar bu tipli kurqanların analoqlarını Qafqaz və Yaxın Şərqin materialları ilə müqayisə edirlər [24, s. 65].

Beləliklə, gələcəkdə Azərbaycanın cənub-şərq regionlarının Tunc-Erkən Dəmir dövrü abidələrinin geniş tədqiqi bölgədə e.ə. III-I minilliklərdə məskunlaşmış qədim tayfaların maddi mədəniyyəti, həyat tərzi haqqında kifayət qədər zəngin məlumat verəcəkdir.

## Ədəbiyyat:


1. Qoşqarlı Q.O., Ələkbərov A.İ. Cənub-şərqi Azərbaycanın arxeoloji xəritəsi // AAEESNEKM (Azərbaycanda arxeologiya və etnoqrafiya elmlərinin son nəticələrinə həsr olunmuş elmi konfransın materialları). Bakı: 1992, s. 48-50.
2. Ələkbərov A.İ. Talış-Muğan mədəniyyətinin dağlıq hissəsinin aran ilə əlaqəsi// AAEESNEKM (Azərbaycanda arxeologiya və etnoqrafiya elmlərinin son nəticələrinə həsr olunmuş elmi konfransın materialları). Bakı: 1992, s. 36-38.
3. Agalarzadeh A.M. About the image of Indian ox (Bos Zebu) on an agate seal // III International Turkish art, history and folklore congress/art activities. 20-26 September 2014 – Dehli, İndia, p.4-5.
4. Rəhimova M., Ələkbərov A., Kazanova M., Lorre K. Azərbaycan-Fransa arxeoloji ekspedisiyasının Lerik rayonunda apardığı çöl-tədqiqat işləri haqqında // Azərbaycanda arxeoloji tədqiqatlar 2012. Bakı: 2013, s. 352-357.
5. Khalatbari M.R. A report in Occasion of the Second Congress for Talish // Culture and civilization. Gilan: 2007, 60 p.
6. Caucase, Egipte et Perse: Jacques de Morgan (1857-1924) pionnier de l`aventure archeologique // Cahiers de musee d`Archeologie Nationale. Paris: 2009, numero 1, 191 p.
7. Müseyibli N.Ə. Zəyəmçay nekropolunda arxeoloji qazıntılar // Azərbaycan arxeologiyası və etnoqrafiyası, №2. Bakı: 2004, s. 58-65.
8. Müseyibli N.Ə. Zəyəmçay nekropolunun qəbir tipləri // Azərbaycan arxeologiyası, buraxılış 12, №2. Bakı: 2009, s. 37-57.
9. Ağalarzadə A.M. Fransada Azərbaycan izləri // "Geostrategiya" aylıq ictimai-siyasi, elmi-populyar jurnal, № 06 (18), noyabr-dekabr 2013, s. 67-71.
10. Гошгарлы Г. Типология погребальных памятников античного периода на территории Азербайджана. Баку: Элм, 2012, 248 с.
11. İsmayılzadə Q.S., İbrahimli B.İ. Qızılburun nekropolu. Bakı: Elm və Təhsil, 2013, 120 s.
12. Mahmudov F.R., Kəsəmənli H.P. Lənkəran yaxınlığındakı qədim qəbiristanlıq haqqında // Azərbaycan SSR EA Xəbərləri – tarix, fəlsəfə və hüquq seriyası, №4. Bakı: 1974, s. 47-56.
13. Джафарзаде И.М. Элементы археологической культуры древней Мугани// Изв. АН. Азерб. ССР: 1946, №9, с. 21-51.
14. Mahmudov F.R. Talış və Muğanın qədim mədəniyyətinə aid arxeoloji materiallar // Azərbaycan SSR EA xəbərləri – tarix, fəlsəfə, hüquq seriyası, №2. Bakı: 1970, s. 66-77.
15. Махмудов Ф.Р. Культура юго восточного Азербайджана в эпоху бронзы и раннего железа. Баку: Nafta-press, 2008, 216 с.
16. Махмудов Ф.Р. Талыш-Муганская культура // Azərbaycan arxeologiyası və etnoqrafiyası. 2004: №1, с.15-20.
17. Göyüşova T.N. Gədəbəy rayonunda aparılmış arxeoloji tədqiqatlar// Azərbaycanda arxeoloji tədqiqatlar 2012. Bakı: 2013, s. 145-149.

18. Xələtbəri M.R. Talış vilayətindəki arxeoloji qazıntıların nəticələri (Təndabin və Mariyan nekropollarının materialları əsasında) (fars dilində)//Gilan: 1383, 297 s.
19. Гусейнова М. Из истории Южного Кавказа Ходжалы Гедабекская культура Азербайджана (XVII-X вв. до н.э.) Баку: "Бизим китаб", 2011, 200 с.
20. Табалдыев К. Ш. Древние памятники Тянь-Шаня. Бишкек: Университет Центральной Азии. V.R.S. Company, 2011, 320 с.
21. Agalarzadeh A.M. Late Bronze and Iron Age stone box, kurgan graves and settlements of southeast region of Azerbaijan//Abstracts National Congress on Talesh Region. Caspian University, Rezvan Shahr 23-24 may 2015, p. 7-8.
22. Алекперов А.И., Сулейманзаде Е.К. Новые памятники Талыш-Муганской культуры//AAEECHEKM (Azərbaycanda arxeologiya və etnoqrafiya elmlərinin son nəticələrinə həsr olunmuş elmi konfransın materialları). Баку: 1992, 122-124.
23. Короневский С.Н. Раскопки курганов Предкавказя. Москва: 2011, 52 с.
24. Мимоход Р.А. Курганы эпохи бронзы - раннего железного века в Саратовском Поволжье. Москва: Таус, 2009, 292 с.
25. Morgan J. de. Mission scientifique en Perse. Tome quatrieme. Recherches archeologiques. Premiere partie, 125 page. Chapitre II. Paris: Ernest leroux editeur, 1896, p. 14-125.
26. Casanova M., Fahimi H. The Intercultural Relation between North (Lenkoran-Azerbaijan) and South (Talesh-Iran) during LBA and EIA: Similarities and\or Differences?\Abstracts National Congress on Talesh Region. Caspian University, Rezvan-Shahr 23-24 may 2015, p. 9.

## Summary

### Late Bronze and Iron Age Stone Box and Kurgan Graves of Southeast Region of Azerbaijan
(On the basis of materials of Lerik and Yardimli districts)



### Anar Aghalarzadeh



This article focuses on the Talysh-Mugan culture, which reflects the level of development of the society of the late Bronze and early Iron Age of the South Caucasus. It is summarized that the monuments of culture clearly indicate the development of economy II-I millennium BC. According to the author based on archaeological evidence, more extensive future studies of the monuments in the southeastern Azerbaijan belonging to the late Bronze and early Iron Ages will give an abundant data about the lifestyle of ancient settled tribes.



**KEY WORDS:** Culture of the Talysh-Mughan, kurgan, stone box graves, Late Bronze and Early Iron Age.

## Резюме


### Курганы и каменные ящики эпохи поздней бронзы-раннего железа Юго-восточного Азербайджана
(по археологическим материалам Лерикского и Ярдымлинского районов)


**Анар Агаларзаде**


Настоящая статья посвящена Талыш-Муганской культуре, которая отражает уровень развития общества эпохи поздней бронзы и раннего железа Южного Кавказа. Отмечается, что памятники этой культуры четко указывают на направление развития главных отраслей хозяйства II-I тыс. до н.э. На основе археологических сведений автор приходит к заключению, что более обширное изучение в будущем памятников эпохи поздней бронзы и раннего железа Юго-восточного Азербайджана даст богатый материал об образе жизни древних племён, населявших данную территорию.


**Ключевые слова:** Талыш-Муганская культура, курган, могильники из каменных ящиков, эпоха поздней бронзы и раннего железа.




1




2

I tablo




II tablo




1




2

III tablo




IV tablo